HEYDƏR ƏLİYEV - XALQIN SƏSİ, HAQQIN SƏSİ

Ulu öndər Heydər Əliyev elə bir tarixi şəxsiyyət, elə bir görkəmli dünya siyasətçisi olmuşdur ki, onun gördüyü işləri tarix və tarixçilər uzun illər boyu öyrənəcək, yazacaq, tədqiq və tətbiq edəcək, Onun ideyaları nəsillərdən-nəsillərə keçərək yaşayacaqdır. XX əsrin sonuna otuz il qalmış müttəfiq respublikalardan birinin, daha sonra suveren dövlətin rəhbərliyinə Heydər Əliyev öz fitri istedadı, bacarığı, əsl liderlərə məxsus keyfiyyətlərinə görə gəlmiş və iki əsrin şərik bir ömrünü yaşamışdır. Onun hər dəfəki gəlişi Azərbaycanda bütün sahələrdə inqilabi dəyişikliklər yaratmış, hakimiyyətlə xalqın birliyi daha da möhkəmlənmişdir.

Əziz oxucu! Belə bir şəxsiyyətlə şəxsən görüşmək, onunla əl tutmaq, təmasda olmaq, onun dilindən nəsihətamiz sözlər eşitmək qismət payına düşən adamlar, ömürlük bu anları unuda bilməzlər. Belə anları yaşayanların cərgəsində olanlardan biri də bu sətirlərin müəllifidir. Tale elə gətirib ki, 1969-2003-cü illər ərzində tutduğum müxtəlif vəzifələrə görə keçdiyim həyat yolunda vaxtaşırı Ulu Öndərin görüşlərində, respublika tədbirlərində olmuşam. Məni şəxsən qəbul edib, vəzifəyə təsdiq üçün söhbət aparıb, ağıllı və uzaqgörən tövsiyələrini verib və onları necə yerinə yetirməyin yollarını göstərmiş, xalqa ləyaqətlə xidmət etməyi tələb etmişdir.

Hadisələr o vaxt tarixiləşir ki, yazılır, yazılmayanlar isə yaddaşlardan silinib gedir. Mən də istəyirəm ki, ulu öndərlə bağlı yaddaşımda olan bir neçə xatirəni yazım.

...Kəlbəcər Rayon Komsomol Komitəsinin birinci katibi işləyirdim. 1970-ci il noyabrın 21-də Azərbaycanda komsomol təşkilatının yaranmasının 50 illik yubileyi keçirilirdi. İndiki Şəhriyar adına sarayda keçirilən təntənəli iclasda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının birinci katibi Tyajelnikov və SSRİ kosmonavtı Volkov iştirak edirdi. İclasdan sonra "Dostluq" restoranında (bu restoran indiki Şəhidlər Xiyabanının dənizə baxan tərəfində yerləşirdi) bu şərəfə ziyafət verilirdi. Bədii hissədə "Lalə" qızlar ansamblı çox geniş proqramla çıxış etdi. Kosmonavt Volkov bir az ərköyün, bir az da meyxoş əhval-ruhiyyə ilə... "Bu badələri burada iştirak edən gözəl qızların sağlığına içək..." - dedi. Bu sağlıqda bir az şitlik hiss olundu. Heydər Əlirza oğlu bu şitliyi hiss etdi, çox ciddi və kəskin formada onun sözlərinə düzəliş verdi: **"Bizdə qadına təkcə yaraşığına görə qiymət verilmir. Onun namusuna, qeyrətinə, qayğıkeşliyinə, əməksevərliyinə və vətənpərvərliyinə görə qiymət verilir. Bizim qadınlar bu sözlərin hamısına layiqdirlər. Gələcəyin xoşbəxt anası olacaq bu qızları böyüdüb tərbiyə edən analar başda olmaqla, bütün Azərbaycan qadınlarının sağlığına badə qaldıraq. Çünki Sovet İttifaqının sosial-iqtisadi, elmi, mədəni, hətta hərbi sənaye sahəsində Azərbaycan qadınlarının namuslu əməyi və iştirakı vardır. Namusunu "qızıl taxt-tacdan" uca tutan Azərbaycan qadınlarına eşq olsun!".**

Yerdən sürəkli alqışlar qopdu, hamı ayağa qalxdı və bu şərəfə qaldırılan badələrin cingiltisi alqışlara qarışdı... Söz yiyəsi payını götürdü və hiss etdi ki, texnikanın gücü ilə "göyün yeddi qatına" qalxsa da, şəxsiyyətin və sözün ətəyinə əli də çatmaz.

Tarix də sübut etdi ki, o cür nəhəng imperiyanın milyon top-tüfəngi Heydər Əliyevin şəxsiyyəti, ağlı və siyasəti qarşısında aciz imiş.

Nə isə... ziyafətdə bütün kənd rayonlarının komsomol komitələrinin birinci katibləri bir cərgədə oturmuşdu. Ulu öndərin diqqəti tez-tez biz tərəfə yönəlirdi və söz yox ki, bu baxışların altında sıxılır, tərləyirdik. Ulu öndər çox diqqətcil və həssas rəhbər idi: heç nə gözündən yayınmazdı. Növbəti çıxışı zamanı sizə diqqət kəsilmişəm, öz gəncliyim yadıma düşür. Mən də sizin kimi çox qaynar idim. Sizin üzünüzdə bir kənd təraməti, torpaq bərəkəti, təbiət ətri hiss olunur. Görünür, siz günəşi bizdən çox qəbul edirsiniz, torpağa çox bağlısınız. İnsanın sağlamlığında bəzi halda dəyişiklik olar, insan xəstələnər, həkim müalicə edər, sağalar, amma böyük bəla orasındadır ki, insan mənən xəstə olsun, mənəviyyatı xəstələnsin, bunlar bizdən uzaq olsun. Mən, sizin hamınıza mənəvi sağlamlıq, təmizlik, vətənə, xalqa sadiqlik, xoşbəxt gələcək arzulayıram. Siz gələcəyə lazımlı kadr kimi böyüməlisiniz. Dövlətimiz, xalqımız sizin hər birinizdən ümidli gələcək gözləyir və mən əminəm ki, belə də olacaq. Bu yolda hər birinizə müvəffəqiyyətlər arzulayıram!".

Doğrudan da, illər keçdi, hər şey ulu öndərin dediyi kimi oldu. Ovaxtkı rayon komsomol komitəsi katiblərinin 90-95 faizi rəhbər partiya, sovet, dövlət və təsərrüfat orqanlarında rəhbər vəzifələrə irəli çəkildilər və indi də bir çoxları fəaliyyət göstərirlər. Bax, budur Heydər Əliyev uzaqgörənliyi, kadr siyasətindəki uğurlar və bugünkü müstəqil Azərbaycan dövlətinin təməl daşını qoyan memarı!

1976-cı ildə Kəlbəcər Rayon Partiya Komitəsində təşkilat şöbəsinin müdiri işləyirdim. Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə yenicə seçilmiş İnqilab Nadirov raykomun büro iclasında bildirdi ki, mən bu günlərdə Heydər Əliyev yoldaşın qəbulunda oldum. Məni çox həssaslıqla dinlədi və Kəlbəcərin sosial-iqtisadi və mədəni inkişafına dair əsaslı qərar hazırlamaq üçün Nazirlər Sovetinə göstərişlər verildi.

Bu, bizim üçün çox sevindirici xəbər oldu. Rayondan verilmiş təkliflər arayışının üzərinə Heydər Əliyev əli ilə aşağıdakı dərkənarı yazmışdır:

"Azərbaycan SSR Nazirlər Sovetinin sədri yoldaş Əli İbrahimova.

Mən Kəlbəcər Rayon Partiya Komitəsinin birinci katibi yoldaş İ.Nadirovun yanvarın 3-də təqdim etdiyi qeydlərlə tanış oldum. Qeydlərdə rayonun iqtisadiyyatının inkişafı, yaranmış çətinliklərin aradan qaldırılması ilə bağlı məsələlər qaldırılır. Qeyd olunur ki, rayonun əmək ehtiyatlarının böyük hissəsi kifayət qədər işə cəlb olunmayıb. Yerli sənaye, tikinti materialları sənayesi, ət və süd sənayesi və digər nazirliklərin xətti ilə müəssisələr açılmasına dair, rayon üçün aktual, sosial-iqtisadi əhəmiyyət daşıyan bir sıra məsələlərlə bağlı təkliflər edilir.

Rayondan bu məzmunlu qeydlər əvvəllər də Azərbaycan KP MK-ya, Respublika Nazirlər Sovetinə daxil olurdu. Lakin mənim fikrimcə, onlara səthi baxılmış, kompleks şəkildə yanaşılmamış, yarımçıq tədbirlərlə kifayətlənmişlər. Bu isə rayondakı vəziyyəti yaxşılaşdıra bilməzdi.

Məndə belə bir rəy yaranır ki, respublikanın nazirliklərinin rəhbərləri, demək olar ki, bu rayonda olmamışlar. Buna görə də rayondakı vəziyyətlə tanış deyillər, rayon üçün olduqca böyük əhəmiyyət daşıyan məsələləri həll edə bilmirlər.

Rayonda 40 min nəfərə yaxın adam, əmək qabiliyyətli əhali yaşayır və əsasən kənd təsərrüfatı ilə məşğul olur. 1974-cü ildə kolxozların xalis gəliri rayon üzrə 32 min rubl, 1975-ci ildə isə 59 min rubl olmuşdu. Bu rəqəmlər hər şeyi deyir. Bizdə belə gəliri digər rayonlarda təkcə ayrı-ayrı təsərrüfatlar deyil, hətta briqadalar qazanır.

Rayon ucqardır və təbii şərait baxımından mürəkkəbdir, iqtisadi cəhətdən zəifdir, problem məsələlərini həll etmək üçün öz imkanları yoxdur. Amma onları həll etmək lazımdır. Buna görə də, rayonun rəhbərliyi ilə birlikdə məsələləri diqqətlə yerində öyrənməyi, real təsirli tədbirlər müəyyənləşdirməyi vacib sayıram.

Hazırlanmış materialları müzakirə üçün MK-ya çıxarmağı təklif edirəm.

H.Əliyev, 6 yanvar 1977-ci il".

Beləliklə, ölkə başçısının qısa müddətdə rayonda hazırlanılmış tədbirlər planına belə doğma münasibət bəsləməsi, rəy verməsi hər şeyi deyirdi.

Bütün bu diqqət, işə ürəkdən yanaşma nəticəsində və Heydər Əliyevin şəxsi təşəbbüsü və nəzarəti ilə qısa müddətdə 1977-ci il dekabr ayının 8-də Azərbaycan KP MK və Respublika Nazirlər Soveti "Kəlbəcər rayonunun iqtisadiyyatını və mədəniyyətini daha da inkişaf etdirmək tədbirləri haqqında" 428 nömrəli tarixi qərarı qəbul etdi. Bu qərar iyirmi üç bənddən ibarət idi və bəndin hər birində böyük bir qərarın qarşıya qoyduğu vəzifələr müəyyənləşdirilmişdi.

Bu qərarın büro iclaslarında, plenumlarda, konfranslarda müzakirəsi üçün layihələri həmişə mən hazırladığım üçün qərarın bütün bəndləri, cümlələri, hətta kəlmələr də sətir-sətir yadımdadır. Məhz, bu qərarın yerinə yetirilməsi ilə əlaqədar görülən işlər nəticəsində yeni bir Kəlbəcər şəhəri yaradıldı. Ucqar, iqtisadi cəhətdən zəif olan dağ rayonundan adamların aran zonasına iş axtarmaq, mal-qara saxlamaq üçün köçürülməsinin qarşısı alındı, yeni iş yerləri açıldı, kolxozçu və fəhlələrin əməkhaqları artırıldı. Rayonun xalis gəliri 59 min rubldan 22 milyon rubla çatdırıldı. Bütün bunların hamısı Heydər Əliyevin respublikada apardığı iqtisadi strategiyanın, mənəvi tərbiyənin, siyasi uzaqgörənliyin nəticəsidi.

Ulu Öndər hələ o vaxtlardan bilirdi ki, sərhəd zonalarında yerləşən rayonların, o cümlədən Kəlbəcərin iqtisadi inkişafı və abadlaşdırılması Dağlıq Qarabağla Ermənistan arasındakı boşluğu doldurmaq, gələcəkdə sərhədlərin möhkəmləndirilməsi, qorunması deməkdir.

...1980-ci ilin avqust ayı idi. Məni Kəlbəcər Rayon Xalq Nəzarəti Komitəsinin sədri vəzifəsinə təsdiq üçün söhbətə çağırmışdılar. Respublika Xalq Nəzarəti Komitəsinin sədri Hacıbala Əfəndiyev tərəfindən söhbətdən keçdikdən sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin qəbulunda olmalı idim. Həddən artıq həyəcanlı idim; bu görüşün sevinci və məsuliyyəti məni səhərə qədər yatmağa qoymadı.

Nəhayət, avqust ayının 16-da Mərkəzi Komitənin Təşkilat-partiya işi şöbəsinin müdiri cənab Ramiz Mehdiyev məni qəbula apardı. İçəri girəndə gördüyüm ab-hava həyəcanımı xeyli azaltdı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev bizi çox xoş qarşıladı, əl tutdu, oturmaq üçün yer təklif etdi. Əllərim titrəyirdi. Əlim incə, lakin güclü barmaqlar arasında sıxılırdı. Özümə gəldim, deməli, mən böyük bir tarixi şəxsiyyətlə görüşürdüm... Hörmətli Ramiz Ənvər oğlu Mehdiyev mənim şəxsi işimi təqdim etdi və haqqımda müsbət fikir söylədi. Keçdiyim həyat yolunu, qısa tərcümeyi-halımı dedi.

Sorğu-sualdan sonra hiss etdim ki, ulu öndər söhbətdən razı qaldı və mənə çox səmimi və nəsihətamiz məsləhətini verdi:

- Yoldaş İsmayılov, sən ucqar dağ rayonunda doğulub böyümüsən, iki ali təhsil almısan, həyat yolu keçmisən, yaxşı ailədə tərbiyə görmüsən. Sənin kimi gənclər gələcəyə çox lazımdır. Qaldı ki, Kəlbəcər həmişə mənim diqqətimdə olan rayondur, sən də o rayondansan. O rayonun geniş potensialı vardır, dünya əhəmiyyətli İstisu oradadır, təbii sərvətlərlə çox zəngindir. Biz bunları üzə çıxarmalıyıq, xalqın istifadəsinə verməliyik. Kəlbəcər dövlət üçün, bizim üçün, bu gün və sabah üçün çox strateji əhəmiyyətli bir yerdir. O rayonun inkişafı üçün mənim təşəbbüsümlə gələcək əhəmiyyətli geniş qərarlar qəbul etmişik. Bu qərarlar yerinə yetirilməlidir. Bunun üçün sizin kimi gənc kadrlar lazımdır, Kəlbəcərdə və digər dağ rayonlarında belə kadrlar azdır. İndi, sən, cavan oğlan da yuyulmuş ağ köynək kimi bəyazsan, təmizsən. Bəzi əliəyri insanların əli isə yağlı boyadır, bir dəfə sənin ətəyinə dəysə, təmizləyə bilməyəcəksən, həmişə özünü qoru... Təbrik edirəm! - Əlimi bir də sıxıb yola saldı.

Qəbul otağından çıxanda keçirdiyim həyəcana görə özümü qınadım; İlahi, bu boyda şəxsiyyət nə qədər sadə, mehriban, səmimi imiş, nə qədər uzağa baxıb fikirləşirmiş!

Bütün həyatım boyu ulu öndərin bu nəsihəti məni qoruyub, hətta bu günün özündə də qulaqlarımda səslənir...

...1982-ci ilin iyul-avqust aylarında cənab Heydər Əliyevin İstisuya - Kəlbəcərə gəlişi gözlənilirdi. Bu şərəfə rayonda çox ciddi hazırlıq işləri görülürdü. Rayon Xalq Nəzarəti Komitəsinin sədri və büro üzvü kimi mən İstisu qəsəbəsinə təhkim edilmişdim. Qəsəbənin abadlığı, xidmət sahələri, istirahətə və müalicəyə gələnlərə göstərilən qayğı və şərait, bütün bunların hamısı diqqət mərkəzində saxlanılırdı. Bu, mənim üçün çox şərəfli və məsuliyyətli tapşırıq idi. Sevinirdim ki, ulu öndərlə şəxsən görüşmək mənə bir də qismət olacaq... Kurort şəhərində xeyli abadlıq işləri görüldü. Xalqımızın görkəmli oğlu Nəriman Nərimanovun, xalq şairi Səməd Vurğunun heykəlləri mərkəzdə ucaldıldı. Hər iki heykəlin üzü Dəlidağa, Zəngəzura, ulu Göyçəyə doğru ucaldılmışdı.

...1982-ci il sentyabr ayının 26-da bizi Azərbaycan SSR-ə "Lenin ordeni" təqdim olunmasına həsr edilmiş təntənəli iclasa dəvət etmişdilər. Tədbir indiki Heydər Əliyev sarayında keçirilirdi. Çox təntənəli tədbir idi. O vaxtlar respublikanın bu yüksək ordenlə təltif edilməsi tarixi bir hadisə idi. Bu ordenin ardınca respublikaya külli miqdarda vəsait daxil olurdu, iqtisadiyyat güclənirdi. Respublika əhalisinin maddi rifah halı yüksəlirdi. Bu, Heydər Əliyevin İttifaq miqyasındakı nüfuzundan, ölkə rəhbərinin ona olan inamından, etimadından irəli gəlirdi. Orden təqdim edildi, respublikanın bayrağı qaldırıldı. Elə bil ki, salon düymə ilə idarə olunurdu. Hamı ayağa qalxıb Heydər Əliyevi alqışladı: "Eşq olsun! Eşq olsun!" - dedilər.

Yerdən bariton səsi olan əməkçi bir qadın kövrələ-kövrələ dedi: "Heydər Əlirza oğlu! Allah qorusun, göz dəyməsin, bədnəzərdən uzaq olasan! Siz çox-çox yüksəklərə layiqsiniz, bu nailiyyətlər Sizindir, Siz gətirmisiniz". (Əfsuslar ki, o qadının kim olduğunu bilmədim).

1982-ci il oktyabr ayının 22-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenum iclasına dəvət olunmuşduq. Plenum indiki Şəhriyar sarayında keçirilirdi. Plenumda təşkilati məsələyə baxıldı. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildiyinə görə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindən azad edildi. Yekunda hamı ayağa qalxıb Heydər Əliyevi alqışladı.

Salonda təlatümlü bir gurultu vardı. Alqışlar kəsilmirdi. Heydər Əliyev səhnədən əl eləyərək minnətdarlığını bildirir və zalı tərk etmək istəyirdi. Aram addımlarla qapıya yaxınlaşırdı. Salondan həm kövrək hıçqırtılar, həm də sevincli alqışlar eşidilirdi.

Arxa cərgədən bir qadın kələgayısını əlində yelləyə-yelləyə: "Yoldaş Əliyev, hara gedirsiniz? Bizi kimə tapşırırsınız? Biz qadınların örpəyi yollar boyunca dalğalanıb Sizin yolunuzu gözləyəcək", - sözləri eşidilsə də, onun ağladığı hiss olunurdu.

Heydər Əliyevin simasında dəyişiklik sezilirdi. Özünə sığışdırmayıb kövrəldiyini bildirməsə də, artıq çöhrəsində ayrılıq deyilən bir həsrətin çalarları hiss olunurdu. Əlini havada yelləyə-yelləyə xudahafizləşirdi. Bəlkə də o anda O, bizə məlum olmayan hisslər yaşayırdı. Bəlkə də, Nəriman Nərimanovun bir zamanlar keçirdiyi, taleyinə uyğun bir hiss keçirirdi. Çünki ulu öndər çox uzaqgörən bir siyasətçi, ağlına və xalqına inanan şəxsiyyət idi.

O, salonu arxasınca gur alqışlarla, onu yola salan xalqına minnətdarlıq hissi ilə tərk etdi...

Söz yox ki, Heydər Əliyevə qarşı bu xalq istəyi, el məhəbbəti bizi istəməyənləri, mənfur erməni xislətliləri narahat edirdi, onlarda qısqanclıq yaranırdı. Sonrakı hadisələr bunun tarixi sübut olduğunu bir daha təsdiqlədi... Lakin "tarix ən ədalətli hakimdir",- deyiblər. Azərbaycan xalqı tarixə həm də ona görə minnətdardır ki, XX əsrin Heydər Əliyev kimi dühasını bir daha özünə qaytardı. Azərbaycanın tale kitabını mahir bir memar kimi ulu öndərin özü səhifələdi. Həlli vacib məsələləri yoluna qoydu, Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. O, dövlətçiliyimizi məhv olmaqdan qorudu. Bir əsrdə ikinci dəfə milli dövlətçiliyi dağılmaq təhlükəsindən xilas etdi və möhkəmləndirdi.

Azərbaycan dövlətçiliyinin son bir qərinəlik tarixinin məntiqə söykənən təhlili göstərdi ki, öz vətənimizdə didərgin, köçkün düşməyimizin başlıca səbəblərindən biri 1982-1993-cü illərdə Azərbaycanda güclü və qətiyyətli dövlət başçısının olmaması olub. 1993-cü ildən sonra da biz şahidi olduq ki, Azərbaycan vətəndaş müharibəsindən, ərazisi parçalanmaqdan, qanunsuz silahlı dəstələrdən yalnız möhtərəm Heydər Əliyevin qətiyyəti və inamı hesabına xilas olundu. Xalq yaxşı bilir ki, 15 iyun 1993-cü ili Milli Qurtuluş Günü kimi qeyd etməyimizin köklü əsası var. Əgər Heydər Əliyev bu tarixdə hakimiyyətə gəlməsəydi, nə bugünkü müstəqil dövlətimiz, nə də ümumbəşəri demokratik inkişafımız olardı...

1998-ci il növbəti prezident seçkiləri ərəfəsində bütün xalq fikirləşirdi ki, ərazisinin 20 faizi işğal altında qalan, bir milyon nəfərdən artıq qaçqın və məcburi köçkünü olan və nəhayət, qarşısında bütün bu ağır problemlərin məcburi həlli zərurəti dayanan ölkəmizin dövlət başçısı qırılmaz iradəyə malik, heç bir çətinlikdən qorxmayan, mübariz və qətiyyətli şəxs olmalıdır. Bu şəxs müasir dövr üçün yalnız və yalnız Heydər Əliyev idi. Bu məqsədlə də 12 iyul 1998-ci il tarixdə Bakı şəhərində Şəhriyar adına mədəniyyət sarayında prezident seçkiləri ilə əlaqədar Təşəbbüs Qrupunun yaradılması və prezidentliyə namizədliyin irəli sürülməsi üçün Qarabağ və respublikanın işğal olunmuş rayonların ağsaqqal, ziyalı və gənclərdən ibarət nümayəndələrinin toplantısını keçirdik. Yaxın keçmişdə Heydər Əliyevin xidmətlərini öz gözlərilə görmüş, zaman-zaman bundan bəhrələnmiş qaçqın-köçkün, didərgin insanlar müdrik rəhbərimizin adına, ünvanına üz tutmaqda haqlı idilər. Toplantı iştirakçıları məni iclasın sədri seçdilər, həm də mən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası ilə əlaqələndirici səlahiyyətli nümayəndə təyin edildim. İlk Təşəbbüs Qrupunun rəhbəri oldum. İlk çıxışımda 1998-ci il prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidentliyinə Heydər Əlirza oğlu Əliyevin namizədliyini irəli sürdüm. Bu təklif çox gurultulu alqışlarla qarşılandı. Salonda əyləşənlər ayağa qalxdı.

Mən, - "bizə, "üçlük" yox, Heydər - Xalq birliyi lazımdır", - dedim.

Bunun ardınca yerdən - "Tarix göstərdi ki, Heydər Əliyevin şəxsiyyəti lərə götürməzdir!", "Xalqın qəlbində yaşayan Heydər Əlirza oğlunu xalqın qəlbindən çıxarmaq olmaz!", "H.Əliyevin bu gün alternativi ola bilməz!" şüarları səslənirdi. Alqışlar kəsilmirdi. Mən salonu sakitləsdirmək üçün Qarabağ ellərinin nüfuzlu ağsaqqalı Seyid Yusif ağanın xeyir-duasını eşitmək təklifini verdim.

Bütün bunların hamısı Heydər Əliyevə olan Allah sevgisi idi, müqəddəs adamların dilindən eşidilirdi və Allahın izni ilə də bu sevgilər həmişə həqiqət olmuşdur. Toplantıda Kəlbəcər 17 saylı köçkün orta məktəbinin şagirdləri Arzu Abdullayeva və Ülviyyə Ocaqverdiyeva "Heydər ata" şeirini bədii qiraətlə, dialoq formasında söylədilər.

Yekunda toplantı iştirakçıları bizi istəməyən xarici qüvvələrin dəyirmanına su tökənlərə üz tutaraq, "Biz qaçqınlar-köçkünlər sizi rədd edirik! Bütün bəlalardan ölkəni xilas edəcək dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi, müstəqil dövlətimizin qurucusu Heydər Əliyevdən başqa, prezidentliyə ikinci bir namizəd yoxdur. Biz prezident kürsüsündə yalnız və yalnız Heydər Əliyevi görürük və müdafiə edirik..." — dedilər.

Mən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası ilə əlaqələndirici səlahiyyətli nümayəndə kimi, ilk Təşəbbüs Qrupunun qeydə alınması, qeydiyyat şəhadətnaməsi verilməsi barədə Mərkəzi Seçki Komissiyasına vəsatətlə müraciət etdim. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası 13 iyul 1998-ci il tarixli 78/271 saylı qərarı ilə "Səlahiyyətli nümayəndələrin qeydə alınması" və 15 iyul 1998-ci il tarixli 79/276 saylı qərarı ilə "Seçicilərin Təşəbbüs Qrupunun qeydə alınması haqqında" 1N-li şəhadətnaməsini mənə verdi. Beləliklə, Heydər Əlirza oğlu Əliyevin yenidən prezidentliyə namizədliyi ilk dəfə Qarabağın və digər işğal olunmuş rayonların əhalisinin nümayəndələrinin yaratdığı ilk Təşəbbüs Qrupu tərəfindən irəli sürüldü. Bizim təklifimizə razılıq verməsi üçün toplantı iştirakçıları adından Heydər Əliyevə müraciət qəbul edildi və mənim imzamla göndərildi. Cənab Heydər Əliyev respublika prezidentliyinə namizədliyinin irəli sürülməsinə razılıq verdi. Bundan sonra Heydər Əliyevin respublika prezidentliyinə namizədliyi üçün Təşəbbüs Qrupunun səlahiyyətli nümayəndələri tərəfindən 58 min 364 imza toplanıldı. İmza toplama ərəfəsində mən respublikanın 37 rayonunda olub ağsaqqallarla, ağbirçəklərlə, gənclərlə, ziyalılarla görüşərək söhbətlər apardım. Çadır düşərgələrində kütləvi görüşlər keçirdik. Hamının bir çağırışı, bir amalı vardı: "Heydər Əliyev - Xalq birliyi". Toplanan imzalar içərisində 90 yaşdan yuxarı 186 nəfərin imzası vardı. Yaşla əlaqədar gözlərinin nuru azalsa da, bu insanların ümid işığı azalmamışdı. Hamı vərəqədə Heydər Əliyevin adını axtarırdı: "İmza atım, istəyimi bildirim, ümidimiz onadır, biz öz torpaqlarımızda ölmək istəyirik", — deyirdilər.

Prezidentliyə namizədlə olan ilk görüşlərimizin birində cənab Heydər Əliyev dedi: **"Heç bir xarici qüvvələrin bizim işimizə, demokratik seçkilərimizə müdaxilə etmək haqqı yoxdur. Prezident seçkilərinin taleyini xalq həll edir. Mənim prezidentliyə ilk namizədliyimi barınmış, təmənnalı adamlar, iqtidar yönümlü təşkilatlar yox, sadə xalq kütləsi, torpağını itirmiş məcburi köçkünlər, əzab-əziyyətlər çəkən Qarabağın ağsaqqal, ziyalı və gəncləri irəli sürmüşlər. "Qarabağın və digər işğal olunmuş rayonların seçicilərinin Təşəbbüs Qrupu"nun toplantısına televiziyada baxdım. Xalqın dövlətə, dövlətçiliyimizə və mənə olan istəyini bəzi qüvvələr görmədimi?**

Təşəbbüs Qrupunun rəhbəri İsmayılov bizim "Mərkəzi Seçki Qərargahı"nın üzvüdür. O, bizim dövrdə gənclər təşkilatında, partiya, təsərrüfat orqanlarında böyük həyat yolu keçmiş adamdı. Sağ olsun...".

Tarixi şəxsiyyət olan Heydər Əliyevin dilindən bu sözləri eşitmək mənim üçün çox böyük qürur hissiydi.

...Beləliklə, mən 1998-ci il prezident seçkilərində "Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Heydər Əlirza oğlu Əliyevin Mərkəzi Seçki qərargahının" üzvü seçildim. Seçki qərargahının sədri Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Fərəməz Maqsudov idi.

Mənə təqdim edilən bu vəsiqəni ömür səhifəmə yazılan yadigar kimi saxlayıram.

Mərkəzi Seçki Qərargahının üzvü kimi Ulu Öndərlə seçicilərin bütün görüşlərində iştirak edirdik. Həmçinin vaxtaşırı Ulu Öndərin özüylə qərargah üzvlərinin iştirakı ilə keçirilən müşavirədə görüşürdük. Hər bir görüş mənim yaddaşımda tarixi bir gün kimi yaşayır. Çünki hər görüşdə Ulu Öndərin dilindən dünya siyasətçilərinə xas olan məntiqli fikir, siyasi taktika, yüksək təşkilatçılıq təcrübəsinə əsaslanan söhbətlər edirdik. İnsanlarla münasibət, səmimiyyətlə yanaşma, sadə rəftar, ciddi tələbkarlıq böyük şəxsiyyətin iş metoduydu. Xalqın liderinə çevrilmək, dövlətin və dövlətçiliyin qorunmasının qarantı olmaq təcrübəsini Heydər Əliyev yan-yana duranda, onun çıxışlarına qulaq asanda, əl hərəkətlərini görəndə hiss edirdim ki, sanki təlatümlü bir aləmdəyəm. Ulu Öndərin ürəyinin səsindən, sözlərin tələffüzündən və üzünün ifadəsindən görünürdü ki, nə qədər xalqına, vətəninə bağlı tarixi bir şəxsiyyətdir. Bu tarixi şəxsiyyətin səsində bir ordu gücünə bərabər çağırış, ümmanlar qədər vətən sevgisi vardı. Ona görə də həmişə xalq Ulu Öndərin bir çağırışı ilə onun ətrafında olurdu. Bizi bütün bəlalardan, bax, bu "Heydər — Xalq birliyi" qoruyub bu günə qədər gətirmişdir.

...Nəhayət, 1998-ci ilin Prezident seçkilərində Heydər Əlirza oğlu Əliyev yüksək səs çoxluğu ilə yenidən ölkə prezidenti seçildi. Artıq Azərbaycan regionun iqtisadi cəhətdən sürətli inkişafa nail olmuş bir dövlətə çevrilməkdə idi.

...2002-ci ilin payızıydı. Ölkənin gələcəyi üçün imzalanmış bir neçə müqavilə və sazişlərin icrası həyata keçirilirdi. Növbəti prezident seçkilərinin gələcək taleyi haqqında bizi istəməyən qüvvələr tərəfindən informasiyalar yayılırdı. Amma biz inanırdıq ki, bütün bunlara qüdrətli və əzmkar prezidentimiz, dünya siyasətçilərilə qoşa addımlayan Heydər Əliyev kimi dahimiz qalib gələcək.

...2003-cü ilin son ayında Azərbaycana, bütün türk dünyasına yayılmış kədərli, müdhiş bir xəbər hamını sarsıtmışdı. Ulu Öndərin cənazəsini qarşılamaq üçün Bakı Hava Limanına getmişdik. Şəhərin mərkəzindən ora qədər yol boyu qocadan-cavana, uşaqdan-böyüyə qədər hamı düzülmüşdü. Bu, Ulu Öndərə olan xalq istəyiydi. Hava limanında hökumət və dövlət rəhbərləri, hərbi heyətlər ümumxalq istəyinin təsirindən ayrıla bilmirdilər.

Dəfn günü indiki Heydər Əliyev sarayında yüz minlərlə insanın Ulu Öndərə olan rəğbətinin canlı şahidi olmuşam. Hətta insanların heç olmazsa kənardan da olsa, o cənazəyə baxmaq üçün bir-birini necə sıxdığı tarixi bir izdihamın mövzusudu.

Ulu Öndərin Azərbaycan xalqına ikinci bir tarixi töhfəsi vardır ki, o da tərbiyə edib, yetişdirdiyi Azərbaycanın və azərbaycançılığın tərənnümçüsü, Heydər Əliyev ideyalarının layiqli davamçısı, dövlətimizin başçısı möhtərəm Prezident cənab İlham Əliyevdir. Məhəmməd Peyğəmbərin (ə.s.) bir kəlamı var: **"Dünyada ən xoşbəxt adam əməli gözəl, ömrü uzun, layiqli övladı olan adamdır". Bu kəlamlar elə bil Ulu Öndər üçün deyilib.** Ulu Öndərdən sonra onun layiqli davamçısı, Heydər Əliyevin özü qədər inandığı İlham Əliyev xalq tərəfindən böyük ruh yüksəkliyi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. İlk addımdan Azərbaycanın daxili və xarici siyasəti uğurla — Heydər Əliyevin yolu ilə davam etdirildi.

Bu gün Heydər Əliyevin qoyduğu yol möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Və bu yolda möhtərəm dövlət başçısına hər zaman mənəvi dəstək olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva onunla çiyin-çiyinə addımlayaraq Ulu Öndərin ideyalarını çox uğurla həyata keçirirlər. Qoy bu yolda Allah-Təala onlara kömək olsun, haqq dayaqları olsun!

Tarix sübut etdi ki, Heydər Əliyev odlardan, alovlardan keçmiş səmənder xarakterli bir şəxsiyyətdir. O, xalqın inandığı, güvəndiyi lider idi.

Nə qədər ki, Azərbaycan var, Ümummilli Lider də yaşayacaqdır!

Vəliyəddin İSMAYILOV,
dövlət qulluğu təqaüdçüsü,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü.